# Gəncə Şəhər Statistika İdarəsi tərəfindən “Ümumdünya statistika günü” ilə əlaqədar tədbir keçirilmişdir

17 oktyabr 2025-ci il tarixində Gəncə Şəhər Statistika İdarəsində “Ümumdünya statistika günü”nün keçirilməsi ilə əlaqədar olaraq ilk öncə Gəncə Şəhər Statistika İdarəsinin əməkdaşları tərəfindən Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib və onun əziz xatirəsinə ehtiram əlaməti olaraq gül dəstələri qoyulub.

Gəncə Şəhər Statistika İdarəsinin inzibati binasında Gəncə Şəhər İcra Hakimiyyətinin, YAP Gəncə Şəhər təşkilatının, digər aidiyyəti qurumların nümayəndələri və Gəncə Şəhər Statistika İdarəsi əməkdaşlarının iştirakı ilə Ümumdünya statistika günü təntənəli şəkildə qeyd edilmişdir.

Tədbirdə ilk olaraq Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan Gəncə Şəhər Statistika İdarəsinin rəisi Elşən Məmmədov ölkədə statistikanın əhəmiyyətindən danışaraq bildirdi ki, gələcəyə baxdıqda, statistika qarşısında duran əsas vəzifələrdən biri rəqəmsal transformasiyanın daha da sürətləndirilməsi və süni intellekt texnologiyalarının tətbiqi ilə analitik imkanların genişləndirilməsidir. Bununla yanaşı, məlumatların keyfiyyətinin yüksəldilməsi, mənbələrin inteqrasiyası və cəmiyyətin statistik məlumatlara olan etimadının daha da artırılması prioritet istiqamətlər kimi qalır.

Çıxışının sonunda statistika sahəsində fəaliyyət göstərən bütün həmkarlarını və idarənin əməkdaşlarını Ümumdünya statistika günü münasibətilə təbrik edib, gələcək işlərində uğurlar arzuladı.

Tədbirə dəvət olunmuş Gəncə Şəhər İcra Hakimiyyəti başçısı aparatının Sosial-İqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin baş məsləhətçisi Tural İbrahimov Gəncə Şəhər Statistika İdarəsinin əməkdaşlarını Gəncə Şəhər İcra Hakimiyyəti başçısı Niyazi Bayramovun adından Ümumdünya Statistika Günü münasibətilə təbrik edib, onlara uğurlar arzuladı və ölkəmizdə rəsmi statistikanın əhəmiyyətli olduğunu bildirdi. YAP Gəncə Şəhər Təşkilatının məsul əməkdaşı Cabir Məmmədov da YAP Gəncə Şəhər Təşkilatının sədri və kollektivi adından statistika əməkdaşlarını təbrik edib və statistikanın əhəmiyyəti haqqında qısa məlumat verdi .

İdarənin rəis müavini Dürdanə Həsənova öz çıxışında bildirdi ki, Ümumdünya statistika günü yalnız statistik xidmət əməkdaşlarının peşə bayramı deyil, həm də cəmiyyətə doğru qərarların etibarlı məlumatlar əsasında qəbul oluna biləcəyini xatırladan önəmli bir tarix kimi əhəmiyyət daşıyır. Bu günün qeyd olunması Azərbaycanda dövlət idarəetməsinin şəffaflığını, elmi əsaslı planlaşdırma mədəniyyətini və davamlı inkişaf strategiyasını bir daha ön plana çıxarır. Keyfiyyətli statistika dövlətin gücünü, vətəndaşın məlumatlılığını və ümumilikdə, gələcəyin inkişaf potensialını müəyyən edən ən mühüm faktorlardan biri kimi qalır.

Tədbirin sonunda 20 oktyabr “Ümumdünya Statistika Günü” münasibətilə bir neçə əməkdaş təşəkkürnamə ilə təltif edildi.






AZƏRBAYCAN RESPUBLİKASI
DÖVLƏT STATİSTİKA KOMİTƏSİ
GƏNCƏ ŞƏHƏR STATİSTİKA İDARƏSİ